## AZƏRBAYCANDA KEÇİRİLƏN "YAY BIR ANDIR" ANİ STİMULLAŞDIRICI LOTEREYANIN KEÇİRİLMƏ ŞƏRTLƏRİ

YAY BIR ANDIR. HƏDİYYƏ QAZAN ani stimullaşdırıcı Lotereyası (bundan sonra – "Lotereya" adlanacaq) Sulutəpə qəsəbəsi, Sumqayıt şosesi 15, Bakı, Azərbaycan Respublikası ünvanında yerləşən Mars Overseas Baku LTD Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra – «Təşkilatçı» adlanacaq), VÖEN: 9900006521, əlaqə nömrəsi: (012) 4977736, tərəfindən 11 İyul 2016 – 15 Sentyabr 2016-cı il tarixləri arasında ("Lotereya Müddəti") Azərbaycan Respublikası ərazisində keçirilir.

## BÖLMƏ 1. LOTEREYADA İŞTİRAK EDƏN QABLAŞDIRMA VƏ ƏMTƏƏ NİŞANLARI

A. Lotereyada iştirak etmək üçün Təşkilatçı tərəfindən istehsal olunan və/və ya paylanan, üzərində Lotereyanın xüsusi etiketi və sarı plastik qapaq(lar)ı olan 0.5 litr və 1 litrlik PET butulkalarda qablaşdırılmış «Pepsi», «Mirinda», «7up» məhsullarından alın (bundan sonra – «Qapaq(lar)» adlanacaq).

## BÖLMƏ 2. UDUŞ KODLARI

Kod: Hər bir uduşlu Qapağının altındakı yazıya baxın, 10 (on) simvoldan ibarət olan təkrarlanmayan kodu (bundan sonra "Kod" adlanacaq) tapın və bu Rəsmi Şərtlərin müddəalarına müvafiq olaraq əsas uduşu/uduşları udmaq hüququnu əldə edin.
Bundan əlavə, qapaqların altında şəkil olarsa, şəkildəki uduşu/uduşları əldə etmək hüququ qazanın.

## BÖLMƏ 3. İŞTİRAK ETMƏ QAYDASI

A. Lotereya qapağı altındakı Kodu tapın, www.pepsi.az internet saytına daxil olun və bu kodu saytın Lotereya üçün ayrılmış xüsusi bölməsində qeydiyyatdan keçirin. Qeydiyyat bir neçə addımdan ibarət olacaq: Qeydiyyat formasını dolduraraq və Öz Adınızı, Soyadınızı, doğum tarixini, elektron poçt ünvanınızı və mobil nömrənizi yazaraq profilinizi qeydiyyatdan keçirin. Həmçinin, siz Facebook və ya Instagram hesablarınızdan istifadə edərək daha sadə üsulla qeydiyyatdan keçə bilərsiz.

B. Hər bir təkrarlanmayan Kod yalnız bir dəfə qeydiyyatdan keçirilə bilər. Eyni kodu bir dəfədən artıq qeydiyyatdan keçirməyin. Bir lotereya iştirakçısı tərəfindən bir gün ərzində ən çox 10 (on) təkrarlanmayan Kod qeydiyyatdan keçirilə bilər.

C. Kodlar 10 August 2016-cı il tarixindək qeydiyyat keçirilə bilər. Əsas uduşlar həmin tarixdə saytdan elan olunacaqdır.

## BÖLMƏ 4. UDUŞLARIN TƏSVİRİ

A. Promo məhsulu almaqla və Kodları qeydiyyatdan keçirərək müxtəlif Uduş/uduşlar qazanmaq haqqını əldə edirsiniz.

A. Promo qapaqların altındakı uduşlar:

A. 300.000 ədəd pulsuz 0.5 l Pepsi regular məhsulu

200.000 ədəd Megafun talonları

150 ədəd Velosiped

.

B. Digər promo qapaqların içərisində xüsusi kodlar olacaqdır. Bu kodları saytda qeydiyyatdan keçirməklə əsas uduşları qazanmaq haqqı əldə edə bilərsiniz.

Liverpulda 22-28 Avqust 2016-cı il tarixlərində keçiriləcək Creamfields festivalina 2 ədəd 2 nəfərlik bilet

C. Əldə oluna biləcək Uduş (lar) qaldığı müddətcə, bu Uduş (lar) 5-ci bölmədəki kimi əldə edilə bilər.

## BÖLMƏ 5. UDUŞLARIN ƏLDƏ OLUNMA QAYDASI

Əsas uduşu/uduşları qazanmağınızı saytdan (www.pepsi.az) yoxlayın.
Digər bütün uduş/uduşlar promo qapaqların altında mövcuddur. Həmin qapaqları hədiyyə dəyişmə məntəqəsinə gətirməklə uduş/uduşları əldə edə bilərsiniz.

A. Rəsmi Şərtlərin bütün digər müddəaları:

a) Hər bir halda bütün tələblərlə bağlı hər hansı anlaşılmazlıqlar və Qapaqlar Təşkilatçı tərəfindən yoxlanılır. Hər bir halda Lotereyada iştirakın şərtlərə uyğunluğu ilə bağlı hər hansı anlaşılmazlıqlarda Təşkilatçının qərarı son qərar olacaq. Təşkilatçı qalib olmayan iddiaçılarla bağlı hər hansı danışıqlar aparmaq və ya açıqlama vermək məcburiyyətində deyil.

b) Siz Əyləncə Uduşunu YALNIZ şəxsən Təşkilatçı ilə və ya onun təyin etdiyi şəxslərlə görüşdükdən sonra əldə edə bilərsiniz. Siz ŞV-ni və təsdiq məktubunu təqdim etməlisiniz.

d) Lotereya ilə bağlı hər hansı digər məlumatlar üçün iş günləri ərzində, Bazarertəsi-Cümə günləri 09:00 – 18:00, Şənbə günü 9:00 – 15:00 saatlarında Qaynar xəttə zəng edə bilərsiniz (012 497 78 82)

## BÖLMƏ 6. BU LOTEREYADA İŞTİRAK EDƏ BİLƏCƏK ŞƏXSLƏR

Azərbaycan Respublikasının bütün vətəndaşları bu Lotereyada iştirak edə bilər. Pepsico İnternational, Mars Overseas LTD MMM Təşkilatçı, və onların yerli nümayəndəliklərinin, bu Lotereyada iştirak edən reklam və təşviqçi agentliklərin, iştirak edən distribyutorlarının,

pərakəndə satıcılarının (mövcuddursa) işçiləri, həmçinin yuxarıda adları çəkilənlərin bilavasitə ailə üzvləri Lotereyada iştirak edə bilməzlər.

**BÖLMƏ 7. SƏHVLƏR VƏ STANDART OLMAYAN QAPAQLAR**

Çap, və ya digər səhv, və ya standart olmayan qapaq, və ya hər hansı səbəbə görə, o cümlədən Qapaq istehsalçısının səhvi səbəbindən, qapağın xaricində olan yazının və ya qapağın içərisində olan Kodun, oxunmaz hala gəlməsinə görə Pepsico İnternational və ya deyilənlərin yerli nümayəndəlikləri, yaxud yerli nümayəndələri (əgər varsa), iştirak edən distribyutorları, pərakəndə satıcıları və ya onların ortaq şəxsləri, reklam agentlikləri və bu Lotereyaya aidiyyatı olan digər agentliklər heç bir məsuliyyət daşımırlar.

**BÖLMƏ 8: UDUŞLARIN PUL EKVİVALENTİ İLƏ ƏVƏZ OLUNMASININ MÜMKÜNSÜZLÜYÜ**

Heç bir halda Uduşlar onların pul ekvivalenti ilə əvəz oluna bilməz.

**BÖLMƏ 9: VERGİLƏR**

Təşkilatçı Uduşla bağlı yarana biləcək heç bir vergi, borc və ya haqlara görə cavabdeh deyil.

**BÖLMƏ 10: LOTEREYADA EDİLƏN DƏYİŞİKLİKLƏR**

Təşkilatçı hər hansı vaxtda və özünun münasib saydığı halda Lotereyanı ləğv etmək və ya onun davam etdiyi müddəti uzatmaq, həmçinin hazırkı Rəsmi Şərtlərə əlavə və dəyişikliklər etmək hüququnu özündə saxlayır.

**BÖLMƏ 11: LOTEREYANIN RƏSMİ ŞƏRTLƏRİ**

Lotereyanın Rəsmi Şərtlərini bu Lotereyada iştirak edən satış nöqtələrində əldə etmək mümkündür.

BU LOTEREYADA İŞTİRAK ETMƏKLƏ SİZ AVTOMATİK OLARAQ ONUN RƏSMİ ŞƏRTLƏRİNƏ TABE OLURSUNUZ. LOTEREYANIN RƏSMİ ŞƏRTLƏRİNİ LOTEREYANIN KEÇİRİLDİYİ SATIŞ NÖQTƏLƏRİNDƏN VƏ WWW.PEPSİ.AZ İNTERNET SAYTINDAN ƏLDƏ EDƏ BİLƏRSİNİZ.

"PEPSİ", “MİRİNDA”, “7UP” PEPSİCO İNC.-NİN QEYDƏ ALINMIŞ ƏMTƏƏ NİŞANIDIR.